**Məmmədrza Heyət,**
**“Varlıq” jurnalının baş redaktoru,**
**Təbriz Araşdırmaları Mərkəzinin rəhbəri**

Mülki insanların da ölümü ilə nəticələnən bu qanlı müharibə şəraitində iki qəddar və qatil sistem arasında qalmanın acısını və kədərini yaşasaq da, gələcək üçün planlarımızı və proqramlarımızı heç vaxt unutmamalıyıq.

İnanıram ki, bu böhranı küldən qalxan od kimi, faciələr arasında oxunan qurtuluş nəğməsi kimi gücümüzü toplamaq və illərlə mübarizə apardığımız milli azadlığa nail olmaq fürsətinə çevirməyin vaxtı çatıb.

İran İslam Respublikası yıxılıb onun yerinə başqa bir anti-türk, antidemokratik, müasir görünüşlü faşist quruluşu gəlməmişdən əvvəl mərkəzləşmiş dövlətin zəifliyini və boşluğunu düzgün dəyərləndirib özümüzə tarixi fürsət yaratmaq, öz-özümüzü idarə etmə prinsiplərini bərqərar edib həyata keçirmək üçün çox uzun bir zamanımız yoxdur.

Bu günə qədər pərdə arxasında gizlənən, lakin öz çirkin niyyətlərini gizlədə bilməyən terror təşkilatlarının illər öncə yaşadığımız qırğınları bir daha yaşamamaq, əcdadlarımızın bizə əmanət etdiyi torpaqları qoruyub gələcək nəsillərə firavan, müasir və azad bir ölkə kimi buraxmaq üçün, türklük üçün, Azərbaycan üçün bütün fikir ayrılıqlarını bir kənara qoyub birləşməkdən yaxşı fürsətimiz yoxdur.

***Əziz Türk Milləti!***

Sizdən gözlənilən möcüzəni yaradın! Nə qədər ki, əlverişli bir şərait mövcuddur, əllərinizə və ayaqlarınıza bağlanmış bu görünməz zəncirləri qırın! Bir daha və əbədi olaraq başqasının sizə hakim olmasına, əmrlər verməsinə, sizi idarə etməsinə icazə verməyin! Özünüzə gəlin, titrəyin, silkələnin. Qoy içinizdəki azadlıq qartalı uçsun! Sən hər şeyin ən yaxşısına layiqsən.

*16 iyun 2025*